# ƏDV nədir, ondan necə istifadə olunur

Vergi Məcəlləsinin 153-cü maddəsinə əsasən, əlavə dəyər vergisi (ƏDV)-vergi tutulan dövriy-




yədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalarına və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasında fərqdir.

Əlavə dəyər vergisi (ƏDV) istehlak vergisinin növüdür. Bu vergi məhsulu və ya materiala hər bir istehsal və çatdırılma mərhələsində əlavə olunan bazar dəyərinə qoyulur və sonda istehlakçının üzərinə düşür. Bu satış vergisindən fərqlidir, çünki satış vergisi alış-veriş nöqtəsində götürülür. Bu konspekti 1918-ci ildə alman sənayeçisi Vilhem von Siemens təklif etmişdir. Fransanın Vergi Vəkalətinin birgə direktoru Maurice Laure isə 1964-cü ilin aprelin 10-da bu vergini ilk dəfə tətbiq etmişdir.

Fərdi axırıncı istehlakçılarda ƏDV-ni geri qaytarmaq imkanı yoxdur, amma müəssisələr təchizat zənciri çərçivəsində alınan və növbəti mərhələdə satılan (digər müəssisəyə və ya istehlakçılara) məhsullar və xidmətlər üçün ödənilmiş ƏDV-ni geri ala bilərlər.

Əlavə dəyər vergisinin iqtisadi mənası ondan ibarətdir ki, o, istehsal və dövriyyənin bütün mərhələlərində yaradılmış və satılmış malların, işlərin, xidmətlərin dəyəri ilə istehsal və dövriyyə xərclərinə aid edilmiş material xərcləri arasındakı fərq kimi müəyyən edilən əlavə edilmiş dəyərin bir hissəsindən tutulur. Bu vergi hüquqi və fiziki şəxslərin fəaliyyəti prosesində yaranan dəyər artımının qanunvericiliklə müəyyən olunmuş kəmiyyətinin dövlət büdcəsinə ayrılan hissəsidir. ƏDV-nin tətbiqi sferası iqtisadi subyektləri deyil, daha çox iqtisadi əməliyyat və fəaliyyətləri əhatə edir.

Azərbaycanda da dünyanın əksər ölkələrində olduğu kimi təyinat ölkəsi prinsipindən istifadə olunur. ƏDV-ni başqa vergilərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də vergi əvəzləşdirilməsi mexanizminin mövcud olmasıdır.

ƏDV-i ona görə yaradılıb ki, yüksək satış vergiləri onlardan qaçmağa səbəb olurdu.

ƏDV məhsulun qiymətinə əlavədir. Əgər mənfəət vergisi müəssisənin sərəncamında qalan mənfəətin, muzdlu işdən tutulan gəlir vergisi işçilərə ödənilən əməkhaqqının həcminin azalmasına səbəb olursa, ƏDV müəssisənin vəsaitlərinin həcmini azaltmır, çünki vergi ödəyicisi tərəfindən ödənilən ƏDV təqdim olunan məhsulun üzərinə əlavə edildiyi üçün həmin məhsulun istehlakçısı tərəfindən əmtəənin qiymətində ödənilir. Yəni ƏDV məhsulu təqdim edən vergi ödəyicisi tərəfindən yox, məhsulu alan son istehlakçı tərəfindən ödənilmiş olur.

ƏDV sisteminin üstünlüyü odur ki, satış vergisi olanda satıcılar öz alıcılarının son istehlakçı olub-olmamasını yoxlamaq stimulu yoxdur. Vergi verənin vergi yığmaq üçün öz hüququnu təsdiq etməlidir. Amma ƏDV olan zaman bütün satıcılar vergi yığıb dövlətə göndərirlər. Alıcı ödənilmiş ƏDV-ni geri almaq istəyir, ancaq bunun üçün öz hüququnu təsdiq etməlidir.

Ona görə onun əlində ƏDV köçürməsini təchizatçının ƏDV qeydiyyat nömrəsini göstərən qaimə olmalıdır.

ƏDV-nin bir hissəsinin geri qaytarılması bu çeklər (qaimə) əsasında mümkündür. Əvvəlcə WWW.edvgerial.az <http://WWW.edvgerial.az> saytına daxil olun, özünüzə elektron kabinet yaradın. Qeydiyyat zamanı şəxsiyyət vəsiqənizin fərdi identifikasiya nömrəsini (FİN), doğum tarixinizi və telefon nömrənizi qeyd edin. Çeklər əsasında geri ödəniş zamanı bilmək lazımdır:

1. İstehlakçı fiziki şəxs olmalıdır.

2. Satıcı ƏDV ödəyicisi olmalıdır.

3. Ödəniş zamanı yeni nəsil kassa aparatlarından istifadə olunmalıdır.

Nəzarət kassa aparatının çekini aldığımız tarixdən sonra 90 gün ərzində elektron portal vasitəsilə müraciət edə bilərsiniz. Buna görə də elektron kabinetə daxil olun, çekin 12 simvollu fiskal İD-sini qeyd edin. Ödəniş BirBank vasitəsilə edildikdə məlumatlar çekin üzərində olan QR kodu skan edilməklə, tez və asan portala yüklənir. Qeyd edək ki, elektron kabinet yaradılarkən qeydiyyatdan keçdiyiniz telefon nömrəsi BirBank mobil tətbiqində istifadə etdiyiniz telefon nömrəsi ilə eyni olmalıdır.

Əlinizdəki çekin çap edildiyi tarixdən 30 gün sonra ƏDV məbləğinin bir hissəsi elektron kabinetinizdəki virtual "pul qabınıza" yüklənəcək. Bu məbləğin hesablanmasına diqqət edək: Nağd ödənişlər üzrə ƏDV məbləğinin 10%-i, nağdsız (kartla, mobil tətbiq vasitəsilə) ödədiyiniz ƏDV məbləğinin 15 %-i. Virtual "pul qabınızda" yığılan vəsaitdən müxtəlif ödəmələr zamanı istifadə etmək mümkündür. Məsələn: kommunal ödənişlər, mobil rabitə, internet, yaxud TV, cərimə və sığorta ödənişləri, ölkədaxili bank kartları, pul köçürmələri.

ƏDV-lərdən istifadə edin, bu hər kəsin büdcəsi üçün daha əhəmiyyətlidir.

**"Qəbələ"**

# Məsuliyyət hissi ilə

Ölkəmizdə infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, 2020-ci il mart ayından etibarən bir çox tədbirlərin həyata keçirilməsinə başlanıldı. Beləliklə, dövlətimizin başçısının uzaqgörənliyi və vaxtında kompleks qabaqlayıcı tədbirlərin həyata keçirilməsi nəticəsində infeksiyanın ölkəmizdə sürətlə yayılmasının qarşısı alınmış oldu.Yeni koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində müvafiq laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr ölkəmizə gətirilməklə yanaşı, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə əhalinin sağlamlığının qorunması və sosial rifahının təmin olunmasına yönələn kompleks tədbirlər əzmlə davam etdirilməkdədir.

Koronovirus (COVİD-19) infeksiyasının qarşısını almaq məqsədilə Qəbələ rayon Heydər Əliyev Mərkəzində də bu istiqamətdə məqsədyönlü və profilaktik tədbirlər həyata keçirilmişdir. Koronavirus, o cümlədən digər qrip infeksiyaları barədə əhalinin tibbi maarifləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərə uyğun olaraq Mərkəzin girişində maarifləndirici materiallar çap edilərək qoyulmuş, mütəmadi olaraq gələn qonaqlara bu haqda məlumat verilir.

Mərkəzin direktoru Kəmalə Qasımova işçi heyətə virus haqqında insanları doğru məlumatlandırmaq, əhalinin zəngin informasiya alması üçün tez-tez söhbətlər aparır.

Koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin həyata keçirildiyi dövr ərzində mərkəz ərazisində dəfələrlə dezinfeksiya tədbirləri aparılmış, əməkdaşlara infeksiyanın yayılmasının qarşısının alınması və infeksiyaya yoluxma əlamətlərinin aşkar edildiyi hallarda fəaliyyətə dair təlimatlar verilmişdir. Mərkəzin əməkdaşları fərdi mühafizə vasitələri və zəruri tibbi ləvazimatlardan istifadəsi ilə bağlı verilmiş göstərişlərə, məsuliyyətlə yanaşır və ciddi şəkildə əməl edirlər.

**Aygün MƏMMƏDOVA,**
**Qəbələ Rayon Heydər Əliyev Mərkəzinin kiçik elmi işçisi**

***18 sentyabr -Milli Musiqi günüdür***

# Musiqimizin dahisi

1995-ci ildən dahi Üzeyir Hacıbəyovun doğum günü olan 18 sentyabr respublikamızda Milli Musiqi Günü kimi qeyd edilir.

Azərbaycan, rus və dünya klassik ədəbiyyatı incəsənətinin ənənələrini dərindən qavramış, doğma xalqının mədəniyyətini yüksəklərə qaldırmaq məqsədilə yazıb-yaratmış böyük bəstəkar ömrünün demək olar ki, 45 ilini bu



işə həsr etmişdir.

1908-ci ilin yanvarında tamaşaya qoyulmuş ilk Azərbaycan operası «Leyli və Məcnun»un müəllifi Ü.Hacıbəyov yeddi il ərzində bir-birinin ardınca beş opera, üç operetta yaratmışdır. «Leyli və Məcnun», «Əsli və Kərəm», «O olmasın, bu olsun», «Arşın mal alan» xalq arasında tezliklə geniş şöhrət qazandı və indiyə qədər səhnəmizdə müvəffəqiyyətlə tamaşaya qoyulur. Bundan sonra o, Azərbaycan operasının şah əsəri olan «Koroğlu»nu yaratdı. Bu dövrdə o, respublikamızda musiqi təhsilini tədris etməyə, gənc kadrların təhsil almasına, klassik və xalq musiqisini öyrənib bədii xüsusiyyətlərini meydana çıxarmağa, müasir musiqi formalarını yaymağa, müxtəlif musiqi kollektivləri yaratmağa müvəffəq olmuşdur. Ü. Hacıbəyov böyük bəstəkar və musiqi nəzəriyyəçisi kimi dünya şöhrəti qazanmışdır.

Ü. Hacıbəyov bəstəkar fəaliyyətini getdikcə genişləndirərək çoxlu mahnılar, romanslar, kantatalar və başqa musiqi əsərləri yazmışdır.

Ü. Hacıbəyov, eyni zamanda, görkəmli bir ədib idi. Onun ədəbi yaradıcılığı iki istiqamətdə davam etmişdir. O, həm dərin məzmunlu satirik felyetonlar, publisistik əsərlər yazmış, həm də opera və operettaların ədəbi məktəbini yaratmışdır. Ü.Hacıbəyov dünya opera sənətində silinməz iz qoymuşdur. «Koroğlu»dan başqa bütün opera və operettaların mətnini özü yazan Üzeyir bəyin librettoları mənasına və bədii keyfiyyətinə görə sərbəst dram əsərləri kimi yaşayır. «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan», «Əsli və Kərəm» insan duyğularını ifadə edən gözəl səhnə əsərləridir.

Böyük axtarışlardan-milli musiqimizi, rus, Avropa və başqa xalqların musiqisini dərindən öyrəndikdən sonra Üzeyir Hacıbəyov öz şah əsərini-«Koroğlu»nu tamamladı. «Koroğlu»nun ilk tamaşası Azərbaycan mədəniyyətində, incəsənətində ən böyük bayrama çevrildi.

Ü.Hacıbəyov həm də kamil bir yazıçı və publisist idi. Onun gözəl felyetonları, ədəbi səhnəcikləri, satirik, publisistik yazıları ədəbiyyatımızda özünəməxsus yer tutur. Ü.Hacıbəyov Cəlil Məmmədquluzadənin yaratdığı «Mola Nəsrəddin» məktəbinin qüdrətli nümayəndələrindən biridir.

Ü.Hacıbəyovun əsərləri həm də xalqın azadlıq mübarizəsinə xidmət etmiş ictimai məzmunlu, mili koloritli, tərbiyəvi əsərlərdir.

**"Qəbələ"**

# Məhsul yığımı





Qəbələ rayonunda bu il üzüm və meyvə bağlarında məhsuldarlıq yüksək olmuşdur. Rayon ərazisində məhsul yığımına vaxtında başlayan fermerlər bu günədək 421 hektar üzüm bağlarından 400 ton, 1000 hektardan artıq olan alma və armud bağlarından 100 ton və fındıq bağlarından isə 1800 tonadək məhsul toplamışlar. Hazırda meyvə yığımı davam edir.

# Reabilitasiya vasitələri təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi səyyar xidmətlərini Siyəzən, Xızı, Şabran, Xaçmaz, İsmayıllı, Qəbələ və Oğuz rayonlarında davam etdirib.

AZƏRTAC a verilən məlumata görə, nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən həmin 7 rayon üzrə 155 nəfər əlilliyi olan şəxsə ehtiyac duyduqları 896 reabilitasiya vasitəsi mərkəzin əməkdaşları tərəfindən həmin rayonlara aparılaraq onlara təqdim edilib.

Bir sıra əlilliyi olan şəxslərin isə yaxın günlərdə reabilitasiya vasitələri ilə təmin edilməsi üçün müayinələri aparılıb və onlardan müvafiq ölçülər götürülüb.

Ümumilikdə bu ilin ötən dövründə Protez-Ortopedik Bərpa Mərkəzi 1000-dən artıq əlilliyi olan şəxsə səyyar formada xidmətlər göstərib. Ehtiyac duyduqları 3764 reabilitasiya vasitəsi onlara yaşadıqları rayon və şəhərlərə, bir qisminə isə evlərində təqdim edilib.